AZƏRBAYCAN
TARİXİ ŞƏCƏRƏ CƏMİYYƏTİNİN

# XƏBƏRLƏRİ

İKİNCİ BURAXILIŞ

BAKI – 2001

*«Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri» buraxılışının işıq üzü görməsində yardım göstərdiklərinə görə ATŞC-nin İdarə Hey'əti cəmiyyətinin həqiqi üzvləri Xanlarov Azər Təl'ət oğluna, Vəzirov Tahir Azad oğluna və Nuriyeva Nərgiz Fuad qızına minnətdarlığını bildirir.*

**Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri.**
**İkinci buraxılış. Bakı, «Səda» 2001, 102 səh.**

**ISBN 5-86871-204-4**

© Azərbaycan Tarixi Şəcərə Cəmiyyəti, 2001
© «Səda» nəşriyyatı, 2001

# AZƏRBAYCAN TARİXİ ŞƏCƏRƏ CƏMİYYƏTİNİN XƏBƏRLƏRİ

İKİNCİ BURAXILIŞ, 2001

***Redaksiya Hey'əti:***

*H.B.Daşdəmirov, E.E.İsmayılov (baş redaktor), Ç.O.Qacar, K.A.Qacar, A.Ə.Ziyadlı*

# MÜNDƏRİCAT

*OXUCULARA* ........ 5

***GENEALOJİ OÇERKLƏR***

Ə.Ş.Tahirzadə. Hacı İsmayıl bəy Qutqaşınlının özü və soyu haqqında ........ 7

***NƏSİL ŞƏCƏRƏSİ***

E.E.İsmayılov. Bakının bəylər nəsli – Xanlarovlar ........ 13
N.A.Cavanşir. Məlikaslanovların soyağacı haqqında (rus dilində) ........ 23
S.V.Dumin. Zadəgan Kazım bəylər (rus dilində) ........ 35
A.Ə.Ziyadlı. Nuribəyovlar ........ 46
E.E.İsmayılov. Həyatovlar, onların əmələ gəlməsi və nəslin əsas xətti (Məşədi Əhməd Həyatovun nəsli) ........ 58

***GENEALOGİYA VƏ HERALDİKA***

D.A.Qulordava. Naxçıvanski xanları nəslinin gerbi (rus dilində) ........ 84

***AİLƏ XRONİKASI***

M.A.Vəzirov. Zümürhaçlı Vəzirovlar (rus dilində) ........ 87

***AİLƏ SƏNƏDLƏRİ*** ........ 98
***«ATŞC-nin XƏBƏRLƏRİ» MƏCMUƏSİNİN İKİNCİ BURAXILIŞINDAKI MƏQALƏLƏRİN MÜƏLLİFLƏRİ*** ........ 100

# ИЗВЕСТИЯ
# АЗЕРБАЙДЖАНСКОГО
# ИСТОРИКО-РОДОСЛОВНОГО ОБЩЕСТВА

ВЫПУСК 2, 2001

***Редакционная коллегия:***

*Х.Б.Дашдамиров, Э.Э.Исмаилов (главный редактор),*

*Ч.О.Каджар, К.А.Каджар, А.А.Зиядлы*

## СОДЕРЖАНИЕ

*К ЧИТАТЕЛЯМ* ........ 5

*ГЕНЕАЛОГИЧЕСКИЕ ОЧЕРКИ*

А.Ш.Тагирзаде. О Гаджи Исмаил-беке Куткашинском и его родословной ........ 7

*РОДОСЛОВИЯ*

Э.Э.Исмаилов. Бакинский бекский род Ханларовых ........ 13
Н.А.Джаваншир. О родословной Мелик-Аслановых ........ 23
С.В.Думин. Дворяне Казем-Беки ........ 35
А.А.Зиядлы. Нурибековы ........ 46
Э.Э.Исмаилов. Хаятовы, их происхождение и старшая линия рода (потомки Мешади Ахмеда Хаятова) ........ 58

*ГЕНЕАЛОГИЯ И ГЕРАЛЬДИКА*

Д.А.Гулордава. Герб рода ханов Нахичеванских ........ 84

*СЕМЕЙНАЯ ХРОНИКА*

М.А.Везиров. Везировы из селения Зумурхач ........ 87

*СЕМЕЙНЫЕ ДОКУМЕНТЫ* ........ 98
*АВТОРЫ СТАТЕЙ ВТОРОГО ВЫПУСКА СБОРНИКА «ИЗВЕСТИЯ АИРО»* ........ 100

# OXUCULARA

Son zamanlar əhalinin geniş təbəqələrinin öz şəcərələrinə marağı xeyli artmışdır (əslzadə və zadəgan ailələrin şəcərəsi qədim zamanlardan öyrənilir). Bununla əlaqədar olaraq, dünyanın bir çox ölkələrində beynəlxalq konfedirasiyalarda birləşdirilmiş həvəskar genealogiya cəmiyyətləri yaranmışdır. Bu cəmiyyətlərin əsas məqsədi keçmiş nəslini araşdırmaq və öz şəcərəsini tərtib etmək arzusunda olanlara yardım etməkdir. Bunun üçün şəxsi arxivlərdəki sənədlərdən, nigah, dohum, vəfat etmə haqda qeydiyyat kitablarındakı, qəbir daşları üzərindəki və başqa yazılırdan istifadə olunur. 1999-cu ilin iyul ayında yaranmış Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin (ATŞC) özünməxsusluğu onunla izah olunur ki, bolşeviklər Azərbaycanda, bir çox ailə və dini arxiv və kitabxanaları məhv etmişlər (dinlə mubarizə bəhanisilə, ərəb əlifbası ilə olan yazılar məhv olunurdu). Bundan başqa, faktiki olaraq, əslzadə ailələrinin genealogiyası və tarixinin öyrənilməsinə qadağa qoyulmuşdur. Beləliklə, bizim cəmiyyətin fəaliyyət sahəsi bir çox inkişaf etmiş ölkələrdə olduğu kimi peşəkar genealoqların fəaliyyəti ilə məhdudlaşmır. Cəmiyyətin üzvlərinin hər bir işi pioner xarakteri daşiyaraq mütəxəssislərin diqqətini cəlb edir. Yə'qin ki, ATŞC-in Xəbərlərinin birinci buraxılışı Azərbaycanda və eləcə də xaricdə (Moskva, Sankt-Peterburq, Tiflis, Paris, Santa-Barbara) məhz buna görə böyük maraqla qarşilanmışdır. Aşağıda təklif olunan ATŞC-in Xəbərlərinin ikinci buraxılışı beynəlxalq buraxılış olmuşdur, çünki, buruda Rusiya və Gürcüstanın genealogiya cəmiyyətlərinin nümayəndələri də iştirak etmek arzusunda olduqlarını bildirmişlər.

1999-cu ilin dekabrında bizim cəmiyyət, beynəlxalq aləmdə tanındıqdan sonra, Parisdə yerləşən Genealoqların və Heraldistlərin Beynəlxalq Konfedirasiyasının üzvü olmuşdur. Cəmiyyətin nümayəndələri genealogiya üzrə bir neçə beynəlxalq tədbirdə iştirak etmişlər. Bunlardan, Moskvada keçirilən I Beynəlxalq genealogiya kollokviumunu (noyabr-dekabr 1999), Nalçikdə keçirilmiş II Beynəlxalq genealogiya kollokviumunu (4-7 oktyabr 2000), Moskvadaki VII Savyolov oxumalarını (dekabr 2000) göstərmək olar. Təəsüfki, də'vətnamə almağımıza baxmayaraq, bizdən asılı olmayan bə'zi səbəblər üzündən ATŞC 2000-ci ilin may ayında Bizansonda (Fransa) keçirilən Genealoqların və Heraldistlərin XXIV Beynəlxalq Konqresində iştirak edə bilmədik.

ATŞC-in Xəbərləri kinci buraxılışında, ən'ənəvi – «Nəsil şəcərəsi» fəslində, cəmiyyətin üzvlərinin təkcə Azərbaycanın zadəgan nəsillərinin – Nurubəyovlar (Qarabağ), Xanlarovlar (Bakı), Sultanovlar (Qəbə-

lə), Məlikaslanovların (Qarabağ) genealogiyasına həsr olunmuş məqalələri deyil, həmçinin, şəcərəsi XVIII əsrin sonuna qədər çatdırılmış «zadəgan olmayan» şuşalı Həyatovlar nəslinə həsr olunmuş məqalə də çap edilmişdir. Axırıncı şəcərə daha qiymətlidir, çunki «sadə» ailələrdə ailə arxivlərinə az-az təsadüf olunur.

Bu fəsildə, Rusiya Genealogiya Federasiyasının prezidenti, Beynəlxalq Genealogiya Akademiyasının baş katibi Stanislav Vladimiroviç Duminin Rusiyada yaşayan Azərbaycan alimi Mirzə Kazım Bəyin nəslinə həsr etdiyi məqaləsi şübhəsiz, azərbaycan oxucularının diqqətini cəlb edəcək.

Ən'ənavi «Ailə xronikası» fəslində Musa Vəzirovun, Vəzirovlar nəslinin Zümürxaç qoluna həsr etdiyi əlyazmasının davamı çap olunur.

«Ailə sənədləri» fəsli çap olunmaqda davam edir.

«Genealogiya və Heraldika» adlanan yeni fəsildə Gürcüstan Genealogiya cəmiyyətinin həqiqi üzvü D.A.Qulordavanın, bu yaxınlarda tapılmış Naxçıvanski xanlarının əlyazma gerbinə (1922) həsr olunmuş məqaləsi dərc edilir.

ATŞC-in planlarında XVI əsrdən Azərbaycanda və İranda hökmdarlıq edən azərbaycanlı Qacarlar nəslinin – şəcərəsinə həsr olunmuş monoqrafiyanın (müəllif Çingiz Qacar) və Talışinski və Talışxanovlar nəsillərinin şəcərəsinin (müəllif Eldar İsmayılov) çapı vardır.

*Ç.O.Qacar*
*ATŞC-in sədri*

Ə.Ş.Tahirzadə

# HACI İSMAYIL BƏY QUTQAŞINLININ ÖZÜ VƏ SOYU HAQQINDA

Qafqazın da ağası olan osmanlılar 1727-də Qəbələni Qazıqumuqlu Surxay xana bağışlamışdılar.

Ətraf xanlar içərisində ad çıxarmış Surxay xan (Dağıstan xanlarıda da) daha çox osmanlılara arxalanaraq səfəvilərin, daha doğrusu, onların adından ölkəni idarə edən naibüssəltənə Nadirin buyruqlarından boyun qaçırmağa başladı. Söz yox ki, Nadir xan bunu götürə bilməzdi; o, böyük qoşunla quzeyə yollandı. 1734-ün sentyabrında Qəbələylə Şamaxı arasında bir tərəfi dağa, obiri tərəfi meşəyə bitişik Dəvəbatan adlı yerdə Surxay xanın 20 minlik ordusu Nadirin sərkərdəsi Təhmasib xan Cəlayirinin 12 minlik qoşunuyla qanlı döyüşə girişdi. Ancaq şah ordusu saycə az olsa da daha mütəşəkkil, intizamlı və təcrübəliydi; nəticədə Surxay xanın qoşunları darmadağın edildi [2.S.144; 11.S.124]. Bu vuruşmada Surxay xanın qoşununda döyüşən Hacı Şəfi sultan (bizcə, bir sənəddə [8] adı çəkilən Hacı Məhəmmədşəfi sultan da budur) böyük igidliklər göstərdi. Ancaq yenilməyin adı ağırdır. Basılmış döyüşçü yurdundan didərgin düşdü və ailəsini də götürüb uzaq bir ölkəyə - İraqa köçdü.

Surxay xandan bir neçə il sonra Qəbələ mahalını həmin Hacı Şəfi sultanın oğlu Kəlbəli sultan (?-1779) [1] idarə etməyə başladı.

12 illik xanlıqdan sonra şəkili Hacı Çələbi xan 1168 (1754/55)-də dünyadan köçdü, bununla da özündən sonra 5 il xanlıq etmiş oğlu Ağakişi bəy'i satqınlar əlinə tapşırdı. Surxay xanın nəvəsiylə evlənmiş Ağakişi bəyi qayınatası Qazıqumuqlu Məhəmməd xan Ərəş sultanı Məlik Əli'nin sarayına çağırdı və Məlik Əliylə sözü bir edib onu 1173 (1759/60)-də alçaqcasına öldürdü [7, 10-uncu maddeyi-tarix]. Məhəmməd xan qoşunla Şəkiyə gəlib Çələbi xanın xəzinəsini yerdən çıxardı, əhalini olmazın incitdi. Dörd aydan sonra el bir yerə yığılıb bu şərəfsiz azğını qovdu və Çələbi xanın oğlu Həsən ağa'nın bircə övladı Məhəmmədhüseyn'i («Hüseyn» də deyirlər) (?-1780) Şirvandan gətirib Şəkidə xan etdi. Ancaq ərəşli Məlik Əli 2 il ona boyun əymədi.

Sərdar Fətəli xan Əfşar «Şuşa qalası üstünə gəlib Qarabağ xanı Pənah xanı özünə tabe etməyə məşğul bulunduğu zaman Ərəş sultanı Məlik Əli bəy də cürbəcür hədiyyə və və'dlərlə Fətəli xanın yanına gəldi. Bu tərəfdən də Şəki xanı Hüseyn xan qutqaşınlı Kəlbəli sultan və sair Şəki böyükləriylə hədiyyələr götürüb Fətəli xanın hüzuruna gələrək əczi-izhar edib mərhəmət və kömək dilədilər. Bu vasitə ilə Fətəli xan Şəki xanlığına Hüseyn xanı qoydu və Məlik Əli bəyi də onun əlinə təslim elədi» [5.S.99]*. Hüseyn xan Məlik Əlini 1174

* Bu mə'lumat A.A.Bakıxanovun «Gülüstani-İrəm» indən alınıb [bax: 2.S.165].

(1760/61)-də öldürdü [7, 11-inci maddeyi-tarix]. Sovet dövrü ilk «Azərbaycan tarixi» kitabımızsa onu Kəlbəli sultanın öldürdüyünü yazır: «Qutqaşın hakimi Kəlbəli sultan Məlik Əlinin Həsən ağaya («Hüseyn ağa» olmalıdır - Ə.T.) qarşı sui-qəsdindən agah olaraq onu öldürmüşdü» [4.S.84].

Kəlbəli sultan Hüseyn xan Müştaq'la çox yaxındı. Ancaq Hüseyn xan gələcək qatili - əmisi Hacı Əbdülqadir'lə düşmən olduqdan və Kəlbəli sultan da onun əmisinə tərəfdar çıxdıqdan sonra bu yaxınlıq yağılığa çevrildi, sultan dustaq edildi [2.S.172]. Xanın qəzəbinə tuş gələn Qəbələ ağası 1193 (1779)-də öldürüldü [9, 16-cı maddeyi-tarix].

Kəlbəli sultandan sonra 4 oğlundan hansının Qəbələ sultanlığında dör başa - ağalığa keçdiyini göstərən qaynaqlar hələlik əlimizdə yoxdur, ancaq sonuncu sultansa bəllidir - bu, Hacı Nəsrulla sultan'dır.

1221-in şə'banında (noyabr 1806) Rusiya Şəki vilayətinə qalib gəldi [7, 25-inci maddeyi-tarix]. Rus çarı hələlik yerli hakimlərdən, o sıradan Hacı Nəsrulla sultandan yalnız vergi almaqla əl götürdü.

1813-də rus təbəəliyini qəbul etdikdən sonra Hacı Nəsrulla sultan yenidən sultan qoyuldu. Şəki xanı İsmayıl xan 1819-da öləndən sonra bu vilayətdə xanlıq ləğv edilib komendant idarə üsulunun yaradılmasıyla sultanlıq da aradan götürüldü.

***

1223-üncü il zilhiccənin 10-u (27 yanvar 1809) idi. Bütün müsəlmanlar kimi Qəbələ mahalının camaatı da təntənəli bir günü - qurban bayramını sevinclə qarşılamağa çalışırdı. Bu gün, övlad gözləyən Hacı Nəsrulla sultan intizar içindəydi - görəsən, ömür-gün yoldaşı Bədircahan xatun bu bayram günündə ona qızmı, oğulmu bəxş edəcək? Muştuluqçunun «gözün aydın, ağa, oğlun oldu!» xəbəri sultanı sanki cavanlaşdırdı. Onun buyruğuyla heyvanlar yan-yana kəsilib əti camaata paylandı, kasıb-kusuba xalvar-xalvar taxıl verildi, acları doydurdular, çılpaqları geydirdilər. Bayram bayrama qarışdı.

Uşağa ad qoymaq üstündə heç kim baş sındırmadı - qurban günü doğulanlara adətən ya Qurban, ya da bu bayramın səbəbkarı İsmayılın adını qoyurdular. İsmayıl adı atanın ürəyinə daha çox yatdı.

1813-dəki «Gülüstan» sülh bağlaşmasına görə, Azərbaycanın Arazdan yuxarısını (Naxçıvan və İrəvansız) Rusiya işğal etdi, özünə birləşdirdi. Xanlar, bəylər qabaqkı yerlərində qaldılar. Ancaq çar gələcəkdə baş verə biləcək çıxışların qarşısını almaqçün oxutmaq, tə'lim-tərbiyə vermək adı altında onların kiçik yaşlı uşaqlarını Peterburqa apartdırıb girov saxlayırdı. Hacı Nəsrulla sultan 4 oğlunun birindən əl üzməliydi. O, "özünün böyük və görkəmli oğullarını dürlü-dürlü bəhanələrlə evdə saxlayaraq, aciz və panpaq zənn etdiyi kiçik yaşlı İsmayıldan çarnaçar əl çəkməyə məcbur oldu" [6].

Peterburqda kadet məktəbini bitirib Əlahiddə Qafqaz Korpusu tərkibindəki Gürcüstan qrenadyor alayında hərbi qulluğa başlayanda (1822) İsmayıl bəyin vur-tut 13 yaşı vardı. Həmin il ilk döyüşçü çini alaraq podpraporşik oldu.

Çar hiyləgər siyasət yürüdürdü – müsəlman ölkələriylə apardığı müharibələrdə cəbhənin ön cərgəsinə müsəlman əsgər və zabitləri çıxarırdı. Praporşik İsmayıl bəy Qutqaşınlı da Rusiya–İran (1826-1828) və Rusiya–Türkiyə (1827-1829) müharibələrinin iştirakçısına çevrildi. Çoxlu qanlar tökdü, çoxlu ordenlərə layiq görüldü. 1832–1836-cı illərdə Rusiyanın qərb şəhərlərindən Varşavada hərbi qulluqda bulundu. Nisbətən qısa vaxtda podpolkovnik (1839), polkovnik (1843) və general-mayor (6 dekabr 1850) çinləri aldı. Rus ordusundakı 25 illik hərbi qulluqdan sonra 1847-dən Şamaxıda «bəy komissiyası»nda işləməyə başladı.

Hacı İsmayıl bəy Dağıstan valisi Tarki şamxalının dul qadını, Üsmiyevlərdən olan Bikə xanım'la evlənmişdi [6]. Uşaqları olmamışdısa da çox mehriban yaşamışdılar.

Hacı İsmayıl bəy həccə iki dəfə gedib. O, birinci ziyarətə 1852-də yoldaşı Bikə xanım, bibisi Surə, Qəbələnin Həmzəlli kəndindən olan mirzəsi Hacı Əli əfəndi və başqa yaxınlarıyla getmişdi. İl yarımlıq səfərin nəticəsi olaraq yazıçının dəyərli elmi-siyasi bir əsəri – «Səfərnamə» yaranmışdı. [İkinci həcc ziyarətisə 1276 (1859/60)-da olmuşdu].

Qafqaz əhalisi arasında böyük hörmətini göz önündə tutan Anadolu ordusunun baş komandanı müşir (marşal) Zərif Mustafa paşa 1854-ün aprelində Hacı İsmayıl bəyə gizli yolla məktub göndərərək sultanın adından onu Azərbaycan və Dağıstanda Rusiya əleyhinə üsyanlar təşkil etməyə çağırmış, bu məktub erməni polkovnik Loris-Məlikov'un casuslarının əlinə düşmüşdü. 1855-dən çar hökuməti Hacı İsmayıl bəyin hər bir hərəkətinə göz qoymağa başlamış, bütün ömrünü Rusiyaya qurban vermiş sərkərdə gizli nəzarət altında yaşamalı olmuşdu.

Döyüşlər və mə'nəvi sıxıntılar içində keçən ömrü çox keçmədən faciəylə də başa çatdı - görkəmli yazıçı və cəsur sərkərdə 1287-ci il səfərin 7-sində (14 avqust 1861) Ağdaş karvansarasında dincələrkən sobadan çıxan dəm qazından zəhərlənərək öldü. Onun 18741 günlük ömür yolu burada başa çatdı...

Hacı Bikə xanım da əriylə eyni ildə dünyasını dəyişib.

***

Hacı İsmayıl bəy də dostu Mirzə Fətəli Axundzadə (1812-1878) kimi öz xalqını yeni məzmunlu ədəbiyyatla maarifləndirmək arzusundaydı. Həyatının bütün ziddiyyətli anlarına baxmayaraq o, əqidəcə ardıcıl maarifçiydi. Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz bölməsinin və Qafqaz Kənd Təsərrüfatı Cəmiyyətinin həqiqi üzvü olan Hacı İsmayıl bəy Qəbələ, Şamaxı, Tiflis və başqa yerlərdə türk balalarının savadlanması və məktəblərin inkişafıyçün əlindən gələni edirdi. Ancaq özünün geniş maarifçilik görüşlərini o, qələmiylə də gerçəkləşdirmək istəyirdi.

Hələlik bəlli olan ilk əsəri - Varşavada hərbi qulluqdaykən fransızca nəşr etdirdiyi (1835) «Rəşid bəy və Səadət xanım» ədəbiyyatımızda maarifçilik düşüncələri yayan elə güclü bir qaynaq oldu ki, "əgər İsmayıl bəyin başqa bir

əsəri olmazdısa da yalnız bu roman onun isminin xatırlarda baqi qalmasına kafi gələrdi" [3].

Qəbələ xanlarının nəslindən olan Səadət xanımla Şəki bəylərindən olan 22 yaşlı Rəşidin atəşli sevgisindən danışan bu əsərlə Azərbaycan ədəbiyyatında nağıl və əfsanələrdən uzaq ilk realist hekayələrimizdən biri yaranmış oldu.

Hacı İsmayıl bəyin bizə çatan ikinci əsəri «Səfərnamə»dir.

Mövcud qaynaqlar Qutqaşınlının başqa əsərlərinin də olduğunu dönmədən göstərir.

***

Qutqaşınlının qohumlarının aydınlaşdırılması onun yaşamının düzgün öyrənilməsinə də kömək edir.

Azərbaycan Mərkəzi Tarix Arxivində saxlanılan bir soyağacı (nəsil şəcərəsi) [10] Kəlbəli sultanın nəsli haqqında geniş təsəvvür yaradır; həmin soyağacı «Nuxa qəzası Qutqaşın kəndinin» sakinləri Mehdi bəy və Alı bəy Sultanov'ların onların bəy nəslindən sayılması haqqında 10 iyun-2 iyul 1874-də verdikləri ərizəyə əsasən tərtib edilib (çox güman ki, onların özü tərtib edib).

Bu soyağacına keçməzdən öncə KƏLBƏLİ SULTAN'ın atasının kimliyini müəyyənləşdirmək gərəkdir. Hacı İsmayıl bəy «Səfərnamə»də yazır: «Bu torpaqları mühafizət etməyə nə qədər qanlar babamız töküb və özümüz nə qədər zəhmət çəkmişik abadan etməyə. Bu saatda nəzərə Dəvəbatan dağı rast düşəndə babamız mərhum Hacı Şəfi sultan'ın orada Nadir şah sərkərdəsinin müqabilində şikəst olub, tərki-vətən edib, əlhal nəslinin Ərəbistan və Şam məmləkətində vətən qərar tutmağı xatirimə gəldi». Artıq yuxarıda qeyd etdiyimiz kimi, bu hadisə 1734-də baş verib. Bu qeyd Qutqaşınlının «babamız» adlandırdığı HACI ŞƏFİ SULTAN'ın gerçəkdən də yazıçının ulu babası -- Kəlbəli sultanın atası olduğunu təsdiqləməyə ciddi əsas verir. Bu fikri danılmaz edən həm Hacı Şəfi sultanla Kəlbəli sultan arasındakı böyük yaş fərqi, həm də Kəlbəli sultanın öz oğlunu da məhz [Hacı] Şəfi [sultan] adlandırmasıdır, axı heç kəsə gizli deyil ki, Azərbaycan türkləri öz atalarının xatirəsini oğullarının adında yaşatmağa böyük önəm verirlər.

Beləliklə, artıq ürəklə Hacı Şəfi sultan oğlu olduğunu dediyimiz KƏLBƏLİ SULTAN'ın dörd oğlunun: Əhməd sultan, Məhəmməd sultan, [Hacı] Nəsrulla sultan və [Hacı] Şəfi sultan'ın adları 1874 tarixli şəcərədə çəkilir və onların nəsilləri bu sənəddə incəliklə sadalanır.

Sözügedən soyağacında ƏHMƏD SULTAN'ın 4 oğlunun olduğu göstərilib: poruçik Hacı Bala bəy [övladları: praporşik Hacı İbrahim bəy (1814-?), Hacı Nuh bəy, Hacı Qədir bəy], praporşik Hacı Musa bəy [övladları: Züleyxa xanım (1834-?), Zöhrənsə xanım (1837-?), Mehdi bəy (1837-?), Xacə xanım (1849-?), Yusif bəy], Əzim bəy [övladları: Şirin bəy (1846-?), Məhəmməd bəy (1854-?)], Hacı Ağarazi (Ağarza?) bəy (1824-?) [övladları: Ağası bəy, Abdulla bəy (1854-?), Ümminisə xanım (1862-?)].

Əhməd sultanın nəsli Kəlbəli sultan övladları içərisində ən qolbudaqlısıdır. Yeri gəlmişkən göstərək ki, Azərbaycan xalqının çox görkəmli aydınları: məşhur yazıçımız İbrahim bəy Musabəyov (1880-1942) və adlı-sanlı göz həkimi, Azərbaycan EA-nın müxbir üzvü, professor Ümnisə xanım Musabəyova (1902-1974) da bu soydandır. İ.B.Musabəyov Əhməd sultanın oğlu Hacı Musa bəyin oğlu, Sarya xanımla ailə qurmuş Mehdi bəy'in oğludur.

İbrahim bəyin üç övladı olub: Mehdi bəy (uşaqkən ölüb), Sarya xanım (?-1924), Zemfira xanım (20.05.1912).

Ümnisə Musabəyova həmin Mehdi bəyin oğlu Süleyman bəy'in qızıdır. Süleyman bəy Ümnisə xanımdan başqa Yusif, Fatma, Əfruz və Şamil'in də atasıdır.

Söykəndiyimiz soyağacına görə, MƏHƏMMƏD SULTAN'ın bircə oğlu olub – Kərim bəy. Kərim bəyinsə 3 oğlu vardı: Məhəmməd bəy (oğlu: Haşım bəy), Qədir bəy [oğlu: Mehdi bəy (1839-?)], Hacı bəy [övladları: Əbdürrəhman bəy, Əhməd bəy (1850-?), Mələk xanım (1859-?)]. Görkəmli Azərbaycan maarifçisi Süleyman bəy Əbdürrəhmanbəyzadə'nin də bu soydan – Kərim bəyin oğlu Hacı bəy'in oğlu Əbdürrəhman bəy'in oğlu olduğunu güman edirik.

1874 tarixli soyağacında HACI NƏSRULLA SULTAN'ın oğullarından yalnız poruçik Hacı Ağa bəy Qutqaşınlı və Hacı İsmayıl bəy Qutqaşınlı'nın adları çəkilib.

Zabitə xanımla (1824-?) ailə qurmuş Hacı Ağa bəy'in burada 4 oğlunun övladları sadalanır: Alı bəy (1846-?), Məhəmməd bəy (1851-?), Həmid bəy (1853-?), Cahan xanım (1862-?). Küsnət kəndində dünyasını dəyişmiş Alı bəy (1846-1915) Xacə xanımla (1854-?) ailə qursa da onların övladları qalmamışdı (bəlkə də olmamışdı).

Bakı mahal məhkəməsinin 4 iyun 1905 tarixli qərarının 1905-inci ilin oktyabrında verilmiş 18753 saylı surətində (özü R.Sultanovda, üzü bizdədir) Alı bəy Hacı Ağa bəy oğlu Nəsrullasultanov-Qutqaşınlı'dan (1846-1915), 15 sentyabr 1905-da və 15 iyun 1913-də verilmiş Qutqaşın və Daşlıca kəndlərinin sahə jurnallarının surətində (özləri R.Sultanovda, üzləri bizdədir) Məhəmməd bəy Hacı Ağa bəy oğlu Nəsrullasultanov- Qutqaşınlı'dan danışılır. Əlimizdə onlara aid yenə çoxlu sənəd var. Maraqlıdır ki, Alı bəyin Həsən bəy Zərdabi'yə məktubu da Əlyazmalar İnstitutunda saxlanılır.

Ayişə xanımla (1849-?) evlənmiş Məhəmməd bəy'insə (1851-1918) 2 övladı vardı – Sultan bəy (1893-1975) və Pəricahan xanım.

Şəxsi araşdırmalarımız sonucunda biz HACI NƏSRULLA SULTAN'ın daha iki oğlunun: Hüseyn bəy'in və Hacı Yəhya əfəndi Qutqaşınlı'nın adlarını da müəyyənləşdirmişik. Hacı Yəhya əfəndinin qələmindən çıxmış «Hüsni-xülq» fəlsəfi əsərinin (məhərrəm 1240 – yanvar-fevral 1844) əlyazmasını da taparaq «Dünyaya qapı» qəzetində çap etdirmişik (may 1991, №7).

1874 tarixli soyağacında HACI ŞƏFİ SULTAN'ın yalnız bir oğlunun – podporuçik Cəfər bəy'in adı çəkilib və onun bircə oğlu Rüstəm bəy'in Mustafa bəy (1864-?), Həsən bəy (1869-?) və Baxşı xanım'ın (1871-?) atası olduğu gö-

stərilib. Ancaq bir sıra sənədlərdə Baxış bəy'in də Hacı Şəfi sultanın oğlu olduğu göstərilib.

***

Sənədlərdən «Qutqaşınlı»nın indiyədək düşündüyümüz kimi təxəllüs deyil, soyad (familiya) olduğu aydınlaşır. Bu familiyanı Hacı Nəsrulla sultan, Hacı İsmayıl bəy və Hacı Ağa bəy'in adları qarşısında görürük. Sonuncunun övladları isə «Nəsrullasultanov-Qutqaşınlı» kimi qoşa familiya daşımışdır. (Bir yerdə İsmayıl bəyin də «Nəsrullasultanov-Qutqaşınlı» soyadı daşıdığı göstərilir, ancaq hələlik onun bu soyadla qolladığı sənədlə üzləşməmişik).

## SÖYKƏNDİYİMİZ QAYNAQLAR


1. Babayev Baba. Böyük həmyerlimiz İsmayıl bəy Qutqaşınlı. // «Qalibiyyət» qəzeti, 21 iyun, 24 iyun, 1 iyul 1967.
2. Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı, 1951.
3.Behbudov Səlim. Mütərcimdən. Əlyazma. Əlyazmalar İnstitutunda, arx. 38, Q-27(526).
4. İsmayılov Rəşid. Azərbaycan tarixi. Bakı, 1923.
5. Mirbağırzadə Mirabbas. Şəki qəzasında hökmranlıq haqqında tarixi müxtəsər mə'lumat. // «Maarif işçisi» jurnalı, 1928, № 12.
6. Mümtaz Salman. «Rəşid bəy və Səadət xanım» hekayəsi mühərriri Qutqaşınlı İsmayıl bəyin həyatı. // «Ədəbiyyat qəzeti», 8 iyun 1936.
7. Tarixnamə. (Maddeyi-tarixlər). Əlyazma. Əlyazmalar İnstitutunda, fr. 1294 (7379).
8. Çıxarış. Azərb. MTA, Xəzər cinayət və mülki məhkəməsi palatası fondu, iş 75, qovluq 5, 6-22-ci vər.
9. [Şəki və Şirvan tarixinə aid əlyazma]. Əlyazmalar İnstitutunda, B-589/10505, 47-49-uncu səh.
10. Kəlbəli Sultanovların soyağacı (şəcərəsi). // AR Mərkəzi Tarix Arxivi, f. 69 (Şuşa bəy komissiyası), təsvir 1, saxlama vahidi 71.
11. Məhəmməd Hüseyn Qüddusi. Nadir şah. Bakı, 1999.

E.E.İsmayılov

## BAKININ BƏYLƏR NƏSLİ – XANLAROVLAR

XIX əsrin birinci yarısından etibarən Bakı quberniyasında Xanlarov soyadlı iki müxtəlif nəsil mə'lum idi. Sonralar bu iki nəsil nikah yolu ilə qohumlaşdılar. Onlardan birinin şəcərəsi Dərbənd xanları ilə bağlıdır. 1759-cu ildə Dərbənd xanlığı yıxıldı və bu nəsil Qubalı Fətəli xan tərəfindən Bakıya köçürüldü [3.V.227-230]. İkinci nəsil isə köklü-köməcli Bakı bəylərindəndir və Bakı xanlarına qohumluğu çatırdı [3.V.62]. XIX əsrin birinci yarısında Xanlarovların ictimai və siyasi fəallıqları az nəzərə çarpırdı. Bununla belə, Azərbaycan əsilzadələri arasında Xanlarovlar öz hörmət və izzətlərini qoruyub saxlamışdılar. Onların əlində kifayət qədər maddi vəsait və torpaq vardı ki, bunların köməyilə fəal və uğurlu maliyyə fəaliyyəti göstərirdilər. Xüsusən də XIX əsrin sonu və XX əsrin əvvəllərində Bakıda kapitalizmin coşqun inkişafda ikən bu fəallıq çox qabarıq nəzərə çarpırdı. Elə buna görə də, Xanlarovlar dövlət xidmətində yüksək vəzifələr tutmasalar da, öz nəsillərinin tarixi boyu ən imkanlı Bakı əsilzadələrindən hesab edilmişlər. Elə indinin özündə də onlara məxsus daşınmaz əmlakın bir hissəsinin sahibidirlər. Bununla bərabər Xanlarovların bəy nəslinin nümayəndələri və onların nigahda olduqları qadın qohumları arasında XIX-XX əsrlərin görkəmli mədəniyyət, incəsənət və elm xadimlərinin yetişməsi çox fərəhli haldır. Onlardan qörkəmli alim və içtimai xadim, Rusiyanın Fiziklər və Kimyaçılar Cəmiyyətinin həqiqi üzvü Mövsüm bəy Xanlarov; xeyriyyəçi Hacı Məmməd Həsən bəy Xanlarov; tanınmış həkim və səhiyyə təşkilatçısı Nazim bəy Xanlarov; SSRİ xalq rəssamı Kamil bəy Xanlarov; professor, kimya elmləri doktoru Anaxanım Xanlarova kimi şəxsiyyətləri qeyd etməmək olmaz [7]. Bu məqalədə Xanlarovların ikinci nəsli, daha dəqiq desək, Hüseynəli bəy Xanlarovun törəmələri barədə söhbət gedəcək. 1872-ci ildə Hüseynəli bəyin onun "nəsillikcə bəy rütbəsində təsdiq edilməsinə" dair Bakı quberniyasının bəylik komissiyasına müraciətindən məlum olur ki, bu ailənin kökü İsgəndər bəy adlı bir şəxslə bağlıdır. Onun oğlu Hacı Kərim bəy Bakıda xanliq nəslinin binövrəsini qoyan Dərgahqulu bəyin bacısına evlənib və ondan Hacı Kərim bəy adlı bir oğlu olub, bu da Hüseynəli bəy Xanlarovun ulu babasıdır [3.V.62]. Müraciətdə Hacı Kərim bəyin daha iki oğlunun - Kərbəlayi Həsən bəy və Axund Hacı Bağır bəy, hansının oğlu Axund Nəcəfəli bəyin də "Dərgah xan nəslindən olan bir qiza evlənmişdir", qeyd olunurlar [3.V.63]. Həmin işdə bu da göstərilmişdir ki, "ərizəçinin (Huseynəli bəyin) atası - Sadıq bəy dövlət xəzinəsindən

## XANLAROVLAR



təqaüd alıb" [3.V.61], Sadıx bəyin babası - Hacı Kərim bəy "Bakının axırıncı xanının suqutuna qədər bəy (əsilzadə) titulu daşayıb" [3.V.62].

**8/6. Hacı Hüseynəli bəy** (təx.1805 - Bakı, 28.07.1883) [2a]. 1848-ci il üçün Bakı şəhərində bəylərin siyahıyaalınmasında onun 48 yaşı olduğu göstərilir (ştabs-rotmistr Hüseynəli bəy Xanlarov) [3.V.247]; 1860-cı il üçün Bakı şəhəri məmur və bəylərin siyahıyaalinmasında onun 55 yaşı olduğu ğöstərilir (ştabs-rotmistr Hacı Hüseynəli bəy Xanlarov) [2.V.502]. Ştabs-rotmistr, 3-cü dərəcəli Müqəddəs Anna və 3-cü dərəcəli Müqəddəs Stanislav ordenli, Şamaxı (Bakı) quberniyasının cinayət və mülki məhkəmə palatasında bəylərin nümayəndəsi kimi iclasçı (1854-1864-cü illər), Bakı bəylik komissiyasının seçmə üzvü [3.V.60], Bakı quberniyasında torpaq sahibi; Quba uyezdində iki kənd, Bakının Pirəküşkül kəndində xeyli torpaq, Masazır və Xırdalan kəndləri Xanlarov cülaləsinə mənsub idi. Sonradan axırıncı iki kənd dövlət xəzinəsinə verildi və buna görə Haci Hüseynəli bəyin doğma qardaşı məmur Məmmədqulu bəyə 200 manat mükafat təyin edildi [3.V.61].



**Ağası bəy Xanlarov (1897-1939)**

**11/8. Hüseynqulu bəy** (təx.1853 - Bakı, 10.04.1885). 1860-cı il üçün Bakı şəhəri məmur və bəylərin siyahıyaalinmasında onun 7 yaşı olduğu ğöstərilir [2.V.502]. Ölənədək evlənməyib [2a].

**12/8. Umleyla xanım** (təx.1854 - Bakı, 24.03.1886) [2a].

**13/8. Əliqulu bəy** (təx.1857 - Bakı, 1932). 1860-cı il üçün Bakı şəhəri məmur və bəylərin siyahıyaalinmasında onun 3 yaşı olduğu ğöstərilir [2.V.502]. Evdə təhsil alıb, daşinmaz mülkiyyət sahibi və neft müəssisələrinin səhmdarı olub. Sosial-demokratik ideyalarla maraqlanıb, "Hümmət" inqilabi təşkilatının üzvü və maddi yardımçısı olsa da sovet dövründə heç bir partiya və ya təsərrüfat rəhbəri vəzifəsi daşımayıb [7]. Xanlarovlar nəslinin o biri qolundan olan Hacı Məmmədhəsən bəyin qızı Qıznaz xanım Xanlarova (1872-1953) ilə ailə qurub.

**14/8. Hacı Kürsüm xanım** (Bakı, 1860-1954). Ev təhsili alıb. Hacı Ağabəy Soltanovun (1858-1924) arvadı olub. Onların törəmələri arasında oğlanları - ilk azərbaycanlı patanatom Kərim bəy Soltanovu və nəticələri - tibb elmləri doktoru, professor, hal-hazırda Azərbaycanın baş psixiatoru Ağabəy Həşimağa bəy oğlu Soltanovun adları xüsusi qeyd edilməlidir.

**15/8. Balaxanım** (Bakı, 1866-1946). Təhsili ev şəraitində alıb. Xanlarovlar nəslinin o biri qolundan olan iri torpaq sahibi Ağa Məmmədəli bəy Ağa Kərim bəy oğlu Xanlarovun (1866-1827) arvadı olub. Onların 4 oğlu və 4 qızı olub. Nevə-nəticələri Bakıda, Moskvada və Peterburqda yaşayırlar.

**16/12. Ağası (Hüseynəli) bəy** (Bakı, 24.10.1897-1939). 1922-ci ildə Petroqrad Universitetinin hüquq fakültəsini bitirib, Azərbaycan SSR-ı Kənd Təsərrüfatı Komissarlığında müxtəlif vəzifələrdə işləmişdir. 1937-ci ildə sürgün olmuşdur, Belomor-Baltik kanalının tikintisində vəfat etmişdir. 1992-ci ildə bəraət almışdır. Öz xalası qızı, iri neft sənayeçisinin qızı Sara xanım Nuru qızı Əmiaslanova ilə ailə qurmuşdur [7].

**17/12. Hüseynqulu bəy** (Bakı, 1903-1927). İlk azərbaycanlı təyyarəçilərdən biri. Azərbaycan SSR-ın Ağır Sənaye Komissarlığında məs'ul vəzifələrdə çalışıb. Moskvada vəgfat edib [7].

**18/16. Firəngiz xanım** (Bakı, 24.10.1924-11.03.1990). Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirib. Prokurorluq orqanlarında və Yüngül Sənaye Nazirliyi sistemində işləyib [8]. Polkovnik Osman Həsənovun arvadı olub. Üç evladları olub: mühəndis-mexanik Elman (05.04.1947), ordu polkovniki Telman (02.10.1951) və baş polis leytenantı Tamerlan (09.05.18956-14.11.1991). Bakıda yaşayırlar.

**19/16. Tələt bəy** (Bakı, 26.08.1927). Me'marlıq üzrə akademik. Azərbaycan Politexnik institutunu qurtarıb (1956). Azərbaycan Dövlət Mükafatı laureatı (1967), Əməkdar me'mardır (1975). Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının həqiqi üzvüdür (1992). Hokumət mükafatlari ilə təltif edilib. Azərbaycanın görkəmli layihəçi-me'marlardan biri sayılır. 60-dan çox nəhəng tikililərin layihəsini verib. Misal olaraq İdman Sarayının, metronun "Bakı Soveti" və "Me'mar Əcəmi" stansiyalarını, Statistika İdarəsinin, Nərimanov və Nizami icra hakimiyyətlərinin binalarını, Mingəçəvirdə Olimpiya üzgüçülük bazasını, Naxçıvanda "Təbriz" mehmanxanasını və başqalarını göstərmək olar. 1992-ci ildən "Akademik T.A.Xanlarovun yaradıcılıq e'malatxanasi"na rəhbərlik edir. Burada İmam Rza məsçidinin, Qafqaz İslam Universiteti kompleksinin, Nərimanov rayonunda məhəllə məsçidinin, habelə Bakıda bir sıra yaşayış və xüsusi imarətlərin layihələri hazırlanmışdır [5]. Birinci Qildiya taciri Hacı Şıxəli Dadaşovun nəticəsi olan Validə Əli Hüseyn qızı Babayeva (16.01.1928-14.02.1980) ilə ailə qurmuşdur [7].

**20/16. Əliqulu bəy** (Bakı, 14.08.1934). Yüngül sənaye texnikumunu bitirib. Hazırda təqaüddədir. Səyyarə xanım Xanlarovaya (1946) evlənib.

**21/17. Cahangir bəy** (Bakı, 1924-1943) qardaşı **22/17. Cəlil bəylə** (Bakı, 1925-1943) birlikdə Böyük Vətən müharibəsində alman təyyarələrinin bombardmanı zamanı həlak olmuşdur [7].

**23/19. Azər bəy** (Bakı, 14.12.1959) Azərbaycan inşaat mühəndisləri institutunu(1981), sonra isə SSRİ Dövlət Tikinti Komitəsinin Beton və Dəmir-beton elmi-tədqiqat institutunun aspiranturasını (1986) bitirmişdir. Texniki elmlər namizədi (1987) və texniki elmmlər sahəsində fəlsəfə doktoru (1998) elmi dərəcəsinin, baş elmi işçi (1992) elmi adin, elm və texnika sahəsində Azərbaycanın Gənclər İttifaqı mükafatının (1990) sahibidir. 40-dan çox elmi işin müəllifidir. Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsində informasiya və xarici əlaqələr şö'bəsinin rəisi vəzifəsində işləyir. Lalə xanım Ibrəhimova (1964) ilə evlidir. İki uşaqları var: №26. Ağa Orxanbəy (30.04.1989) və №27. Ayan xanım (15.01.1999).

**24/20. Tünzalə xanım** (Bakı, 28.05.1969). Azərbaycan inşaat və memarliq universitetinin me'marliq fakültəsini bitirib (1991). İş adamı Vagif Əhədova ərə gedib. Hazırda İsrailin Rexovot şəhərində yaşayır.

**25/20. Ağası bəy** (Bakı, 05.07.1971). İş adamıdır. İradə xanım Xanlarova (1974) ilə evlidir.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT
## ИСТОЧНИКИ И ЛИТЕРАТУРА


1. Государственный исторический архив Азербайджанской республики (ГИААР). Ф.10. Оп.1. Д.24.
2. ГИААР. Ф.10. Оп.1. Д.80.
2а. ГИААР. Ф.43. Оп.2. Д.7319.
2б. ГИААР. Ф. 44. Оп. 1. Д.590а.
3. ГИААР. Ф.55. Оп.1. Д.11.
4. ГИААР. Ф.55. Оп.1. Д.42.
5. Зодчий Талаат Ханларов. Баку, 1997.
6. Кавказский календарь на [1854-1864 гг.]. Тифлис, 1853-1863.
7. Сведения, предоставленные А.Т.Ханларовым.
8. Семейные документы (метрики, различные свидетельства и т.п.).


**Э.Э.Исмаилов**

## БАКИНСКИЙ БЕКСКИЙ РОД ХАНЛАРОВЫХ

Под фамилией Ханларовых с первой половины XIX века в Бакинской губернии были известны два разных рода, которые в дальнейшем породнились между собой путём браков. Один из этих родов возводил своё происхождение к ханам Дербентским, которые в 1759 г. были низложены и переселены в Баку Фатали-ханом Кубинским [3.Л.227-230].

Второй из них, принадлежал к коренным Бакинским бекским фамилиям и состоял в родстве с ханами Бакинскими |3.Л.62об|. В первой половине XIX века имело место невысокая общественная и политическая активность Ханларовых. Однако это не помешало им, сохранившим за собой значительные материальные средства и земли, сосредоточиться на занятии активной и успешной финансовой деятельностью, особенно в период бурного развития капитализма в городе Баку в конце XIX – начале XX вв. Благодаря этому, бакинские беки Ханларовы, не занимая высоких должностей на государственной службе, на всём протяжении своей истории являлись одной из состоятельных бакинских фамилий, владея и в настоящий момент частью принадлежащей им недвижимой собственности |7|. Наряду с этим, к представителям рода Ханларовых и их потомкам по женским линиям принадлежат ряд видных деятелей азербайджанской культуры, искусства и науки – выдающийся учённый и общественный деятель Мовсум-бек Ханларов, меценат Гаджи-Мамед-Гасан-бек Ханларов, известный врач и организатор здравоохранения Назим-бек Ханларов, народный художник СССР Кямиль-бек Ханларов, доктор химических наук, профессор Ана-ханым Ханларова |7|. В данной статье будет рассмотрена одна линия рода Ханларовых (второго из выше названных родов) – потомков Гусейн-Али-бека Ханларова (см. ниже). Из поданного Гусейн-Али-беком в марте 1872 г. в Бакинскую бекскую комиссию прошения о признании его «в потомственном бекском звании» следует, что родоначальником этой семьи являлся некий Искендер-бек, сын которого Гаджи-Керим-бек был женат на неизвестной по имени сестре Даргах-Кули-бека (основателя рода ханов Бакинских) и от брака с которой имел сына Гаджи-Керим-бека – прадеда Гусейн-Али-бека Ханларова |3.Л.62 об|. В прошении также указаны ещё два сына Гаджи-Керим-бека – Кербалаи-Гасан-бек и Ахунд Гаджи-Багир-бек, сын которого – Ахунд Наджаф-Али-бек также «был женат на девице из рода Даргах-хана» |3.Л.63|. В данном деле также было отмечено, что «отец просителя (Гусейн-Али-бека) – Садых-бек по день своей смерти получал из казны пенсию» |3.Л.61об|, а дед Садых-бека – Гаджи-Керим-бек «со времени последнего владетельного Бакинского хана пользовался бекским достоинством» |3.Л.62об|.

**8/6. Гаджи-Гусейн-Али-бек** (ок. 1805–Баку, 28.07.1883) |2а|. В камеральном описании беков города Баку за 1848 г. ему показано 48 лет (штабс-ротмистр Усейн Али Бек Ханларов) |1.Л.247|; а в камеральном описании чиновников и беков города Баку за 1860 г. ему показано 55 лет (Штабс-ротмистр Гаджи Усейн Али Бек Ханларов) |2.Л.502|. В 1823 г. произведён в канцеляристы, 31.12.1830 г. – в коллежские регистраторы, а 30.05.1830 г. – в губернские секретари; 8.01.1831 г. произведён в 10 класс, а 21.01.1832 г. «Высочайшим приказом переименован в штабс-ротмистры»; награждён орденом Св.Станислава 3-й ст. (27.06.1833) и орденом Св.Анны 3-й ст. (30.11.1861), а также знаком отличия на георгиевской ленте за 20 лет беспорочной службы |26.Л.35|. Заседатель от беков в Палате уголовного и гражданского суда Шемахинской (Бакинской)

## ХАНЛАРОВЫ



I поколение
Искендер-бек[1]
II
Гаджи-Керим-бек[2]
III
Гаджи-Мамед-Али-[3] бек
Кербалаи-Гасан-[4] бек
Ахунд-Гаджи-Багир-[5] бек
IV
Садых-бек[6]
Ахунд-Наджаф-Али-[7] бек
V
Гаджи-Гусейн-Али-бек[8] (ок.1805-1883)
Мамед-Кули-бек[9]
Яхъя-бек[10]
VI
Гусейн-Кули-бек[11] (ок.1853-1885)
Али-Кули-бек[13] (ок.1857-1932)
Бала-ханым[15] (1866-1946)
Ума-Лейла-ханым[12] (?-1886)
Гаджи-Кюрсум-ханым[14] (1860-1954)
VII
Агаси(Гусейн-Али)-бек[16] (1897-1939)
Гусейн-Кули-бек[17] (1903-1927)
VIII
Фиренгиз-ханым[18] (1924-1990)
Али-Кули-бек[20] (род.1934)
Джамиль-бек[22] (1925-1943)
Талаат-бек[19] (род.1927)
Джахангир-бек[21] (1924-1943)
IX
Азер-бек[23] (род.1959)
Тунзаля-ханым[24] (род.1969)
Агаси-бек[25] (род.1971)
X
Ага-Орхан-бек[26] (род.1990)
Айан-ханым[27] (род.1999)

губернии [6. На 1854–1864 гг.]. Выборный член Бакинской бекской комиссии [3.Л.60]. Землевладелец Бакинской губернии; в его владении состояли 2 населённые деревни в кубинском уезде, а также «на землях Ханларовых в Бакинском уезде жили оседло Пирикишкульские поселяне»; кроме того семье Ханларовых принадлежали деревни Масазыр и Хырдалан, которые отошли в казну и за которые родному брату Гаджи-Гусейн-Али-бека – чиновнику Мамед-Кули-беку было назначено вознаграждение в 200 рублей [3.Л.61].

**11/8. Гусейн-Кули-бек** (р.ок.1853–Баку, 10.04.1885). В камеральном описании чиновников и беков города Баку за 1860 г. ему показано 7 лет [2.Л.502]. Умер холостым [2а].

**12/8. Ума-Лейла-ханым** (?–Баку, 24.03.1886) [2а].

**13/8. Али-Кули-бек** (р.ок. 1857–Баку, 1932). В камеральном описании чиновников и беков города Баку за 1860 г. ему показано 3 года [2.Л.502]. Получил домашнее образование, крупный владелец и акционер недвижимости и нефтяных предприятий. По семейному преданию, увлекался социал-демократическими идеями, активно поддерживал материально и был членом революционной организации «Гуммет», однако в советское время никаких партийных и хозяйственных должностей не занимал [7]. Был женат на Гызназ-ханым Гаджи-Мамед-Гасан-бек-кызы Ханларовой (1872–1953), (принадлежала к другой ветви рода).

**14/8. Гаджи-Кюрсум-ханым** (1860–1954), получила домашнее образование. Жена Гаджи-Ага-бека Султанова (1858–1924). Среди их потомков особо можно отметить сына – Керим-бека Султанова – первого азербайджанского патанатома и правнука – Ага-бека Ашум-оглы Султанова – доктора медицинских наук, профессора, в настоящее время – главного психиатра Азербайджанской Республики.

**15/8. Бала-ханым** (1866–1946), получила домашнее образование. Жена крупного землевладельца Ага-Мамед-Алы-бека Ага-Керим-бек-оглы Ханларова (1866–1927) (принадлежал к другой ветви рода). У них 4 сына и 4 дочери, внуки и правнуки которых проживают в Баку, Москве и Петербурге.

**16/12. Агаси (Гусейн-Али)-бек** (24.10.1897–1939), окончил юридический факультет Петроградского университета (1922), работал на различных должностях в Наркомате сельского хозяйства Азербайджанской ССР. В 1937 году репрессирован, скончался на строительстве Беломоро-Балтийского канала. Реабилитирован в 1992 году. Был женат на двоюродной сестре по материнской линии Саре-ханым Нуру-кызы Амираслановой (9.12.1906–9.03.1998), дочери крупного нефтепромышленника [7].

**17/12. Гусейн-Кули-бек** (1903–1927), один из первых азербайджанских летчиков, работал на ответственных должностях Наркомата тяжелой промышленности Азербайджанской ССР, скончался в Москве [7].

**18/16. Фиренгиз-ханым** (24.10.1924–11.03.1990), окончила юридический факультет Азербайджанского Государственного университета, работала в прокуратуре и в системе предприятий лёгкой промышленности Азербайджанской ССР [8]. Вышла замуж за полковника Османа Гасанова

(род. 1921), от которого имела троих сыновей - Эльмана (род. 5 04.1947), инженера-механика, Тельмана (2.10.1951), полковника, Тамирлана (9.05.1956–14.11. 1990), старшего лейтенанта милиции. Все потомки проживают в Баку.

**19/16. Талаат-бек** (Баку, 26.08.1927). Академик архитектуры. Окончил Азербайджанский Политехнический институт (1956). Лауреат Государственной премии Азербайджана (1967), Заслуженный архитектор Азербайджана (1975), вице-президент Международной академии архитектуры стран Востока (МААСВ) (1992), имеет правительственные награды. Один из крупнейших современных архитекторов-проектировщиков Азербайджана, автор более 60 уникальных проектов, в том числе: Дворца Спорта, станций метро «Бакы Совети» и «Мемар Аджеми», зданий ЦСУ, Главснаба, Наримановского и Низаминского исполкомов, Мингечаурской Олимпийской гребной базы, ДК «Химик» в г. Сумгаите, гостиницы «Тебриз» в Нахичевани и др. С 1992 года возглавляет «Творческую мастерскую академика Т. А. Ханларова», где им выполнены проекты Соборной мечети «Имам Рза», комплекса Кавказского исламского университета, квартальной мечети в Наримановском районе, а также ряда офисов, жилых домов и частных особняков в Баку и его предместьях. [5]. Был женат на Валиде Али-Гусейн-кызы Бабаевой (16.01.1928–14.02.1980).



**Талаат-бек Ханларов (род. 1927)**

**20/16. Алигулу-бек** (Баку, 14.08.1934), окончил техникум легкой промышленности. В настоящее время на пенсии. Женат на Сейяре-ханым Ханларовой (род. 1946).

**21/17. Джахангир-бек** (1924–1943), вместе с братом **Джамиль-беком** (1925–1943) **(№ 22/17)** в Великую Отечественную войну погибли на фронте (во время немецкой бомбардировки их эшелона) [7].

**23/19. Азер-бек** (Баку, 14.12.1959), окончил Азербайджанский инженерно-строительный институт (1981) аспирантуру Научно-исследовательского института бетона и железобетона (НИИЖБ) Госстроя СССР в Москве (1986), кандидат технических наук (1987), старший научный сотрудник (1992), доктор философии в области технических наук (1998), лауре-

ат премии Союза молодежи Азербайджана в области науки и техники (1990), автор более 40 научных работ, начальник отдела информации и внешних связей Госстроя Азербайджанской Республики. [8]. Женат на Лале-ханым Юнис-кызы Ибрагимовой (род. 1964), у них сын (№ **26) Ага-Орханбек** (Баку, 30.04.1990) и дочь (№ **27) Айан-ханым** (Баку, 15.01.1999).

**24/20. Тунзале-ханым** (Баку, 28.05.1969), архитектор.

**25/20. Агаси-бек** (Баку, 5.07.1971), предприниматель.

Н.А.Джаваншир

# О РОДОСЛОВНОЙ МЕЛИК-АСЛАНОВЫХ

Эта статья посвящается азербайджанскому бекскому роду Мелик-Аслановых, ведущих свое происхождение от Дизакских меликов Верхнего Карабаха

Меликство Дизак было одним из пяти (Хачын, Варанд, Талыш, Чылаберд) меликств Верхнего Карабаха – «Хамсе» («Хамсеи Карабах», «Карабах бешлии», как они назывались в средневековых источниках).

Титул «мелик» появился в Азербайджане в арабский период и в переводе с арабского означал «правитель». В раннем средневековье этим титулом наделялись правители-немусульмане, а позже главы местных мусульманских государств. При Сефевидах и в последующие годы мелик означал мелкого владетельного феодала, потомка местных владетелей, подчинившихся шахской власти. В некоторых случаях мелик – это старшина селения или группы селений |18.С.112|. Этот титул, также как и владения, передавались по наследству.

